## Müəssisələrin yerləşməsi və onun işinin təşkili

Hər bir milli iqtisadiyyatın və onun inkişafının təməlini, əsas həlqəsini müxtəlif mülkiyyət formalı müəssələr təşkil edir. Məhsul istehsalı, müxtəlif işlərin görülməsi, çoxsaylı xidmətlərin göstərilməsi kimi həyatı əhəmyətli proseslər, məhz müxtəlif təşkilati-hüquqi və mülkiyyət formasına malik müəssisələrdə baş verir. Təbii ki, bütün sahələrdə olduğu kimi, müəssisələrin də mahiyyəti, məhz bu sahənin fəaliyyətini tənzimləyən müvafiq qanunvericilik bazası ilə müəyyən edilir.

“Müəssisə - mülkiyyət formasından aslı olmayaraq mövcud qanuna müvafiq olaraq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət əldə etmək məqsədilə məhsul istehsal edən, işlər görən və xidmətlər göstərən hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfat subyektidir”.

Bazar iqtisadiyyatı strukturlarının fəaliyyətinə dair Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə 01yanvar 2010-cu il tarixə ölkəmizdə 13462 kicik müəssisə, 1165 xarici və müştərək müəssisələr, 2523 fərdi müəssisələr və 6 birja mövcud olmuşdur. Çoxsaylı istehsal-istehlak və xidmət təyinatlı koorperativləri, səhmdar cəmiyətlərini, firmaları və şirkətləri də bura əlavə etsək, iqtisadiyyatımızda sahibkarlıq subyektlərinin nə dərəcədə geniş və əhatəli olduğunu görərik. Qeyd etmək yerinə düşər ki, 2010-cu ildə Respubilikamızda ümumi daxili məhsulun 90 faizə yaxını qeyri- dövlət sektorunun payına düşür.

Müəssisə özünün əsasnaməsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin bir, yaxud eyni zamanda bir necə növü ilə məşğul ola bilər. Bu halda, müəssisə sahibkarlıq fəaliyyətinin həm subyekti, həm də obyekti kimi çıxış edir. Müəssisənin təsərrüfat fəaliyyətinin məzmunu istehsalın təşkilindən və məhsul satışından irəli gəlir. Müxtəlif profilli müəssisələrin fəaliyyəti əsasən aşağıdakı üç istiqamət üzrə qurula bilər:

- Natural - əşya xarakteri olan məhsul istehsalı (məsələn, sənayenin hasilat və emal edici sahələri, kənd təsərrüfatı,tikinti məhsulları və s.)
- işlərin görülməsi (sənaye xarakterli işlər, quraşdırılma, layihə axtarış, geoloji-kəşfiyyat, elmi-tədqiqat, yükləmə-boşaltma və s. )